Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

## II CİLD

Azərbaycan Milli Kitabxanası

BAKI – 2017

## MİRZƏ MUXTAR MƏMMƏDOV



*(1841, Şuşa – 17.1.1929, Bakı). Aktyor, müəllim.*

Mirzə Muxtar Ələsgər oğlu Məmmədov milli səhnəmizin ilk peşəkar aktyorlarındandır. Əvvəlcə mədrəsədə, iki il sonra, on bir yaşında türk-rus mütərəqqi məktəbində təhsil alıb. Fars və rus dillərini mükəmməl öyrənib. İyirmi yaşından Şuşada müəllimliklə məşğul olub. 1870-ci ildə Novruz bayramı münasibətilə hazırladığı «Qaravəlli» tamaşası camaatın çox xoşuna gəlib. Bundan sonra o, bütün bayramlarda məsxərəli oyunlara rəhbərlik edib. 1874-cü ildə Şuşada Mirzə Fətəli Axundzadənin «Hacı Qara» komediyasını tamaşasına səhnə quruluşu verib. Komediya Şuşadakı rus əsgərlərinin qışlasında (kazarmasında) göstərilib. Onun aktyorluğunun ilkin mərhələsi (1873 – 1883) Şuşa dövrünə aiddir.

1883-cü ildə Gəncəyə köçərək burada müəllimlik edib sonra Tiflisə gedərək xüsusi gimnaziyada təhsil almaqla bərabər türk-rus ilkin məktəbində dərs deyib. Səhnə vurğunu hər iki şəhərdə, xüsusən Tiflisdə yerli həvəskarlar dəstəsində aktyorluğunu davam etdirməklə yanaşı özü də tamaşalar hazırlayıb. Beləliklə, Gəncə və Tiflis dövrü onun səhnə fəaliyyətinin ikinci mərhələsi kimi səciyyələnir.

Mirzə Muxtar Məmmədov 1899-cu ildə Bakıya köçüb. Məktəblərdən birində müəllimliyini davam etdirib. Eyni zamanda «İkinci müsəlman dram cəmiyyəti», «Həmiyyət», «Nicat», «Səfa», Hüseynqulu Sarabskinin «Opera artistləri dəstəsi», «Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdiriyyəti», Abbasmirzə Şərifzadənin «Müsəlman artistləri ittifaqı» teatr truppalarında aktyorluq edib.

*Aktyorun ifa etdiyi əsas rollar:* Əbül Qeys, İsfahan şahı, Həsənqulu bəy («Leyli və Məcnun», «Əsli və Kərəm» və «Məşədi İbad», Üzeyir bəy Hacıbəyli), Bədircahan, Yetər («Ağakərim xan Ərdəbili» və «Hacı Qəmbər», Nəcəf bəy Vəzirov),



ТЕАТРЪ БАЛАХАНСКАГО КРУЖКА.

Въ Пятницу, 24 Апрѣля 1909 г.

кружкомъ мусульманскихъ драматическихъ артистовъ

ПРЕДСТАВЛЕНО БУДЕТЪ:

„ГЯВЭ“

(КУЗНЕЦЪ)

Историческая пьеса въ 5 актахъ.

Соч. Ш.-САМИ-БЕКА. Переводъ С.-Б. АХУНДОВА.

Дѣйств. происходитъ въ Персіи 550 лѣтъ до Рождества Христова.

Дѣйствующія лица.

| | |
|---|---|
| Азидаhакъ (повелитель Ирана) | г-нъ Гаджинскій |
| Гахтанъ (его министръ) | г-нъ Гаджаловскій |
| Мейру (сестра царя Джамшида) | г-жа Тамаэчица |
| Хубъ-Чоhра (мнимая дочь Азидаhака) | г-жа Кузнецова |
| Первизъ (Фридунъ) мнимый сынъ пастуха Губада) | г-нъ [redacted] |
| Фарhадъ (приближен. Азидаhака) | г-нъ Сарабскій |
| Гявэ (кузнецъ) | г-нъ Вели |
| Мейрибанъ (его жена) | г-жа Кузнецова |
| Бэhрамъ (ихъ дѣти) | г-нъ Бабаевъ |
| Рустамъ (ихъ дѣти) | г-нъ Шарифовъ |
| Губадъ (пастухи) | г-нъ Абасовъ |
| Хосро (пастухи) | г-нъ Аллавердовъ |
| Нозаръ (пастухи) | г-нъ Кязымовскій |
| Езадъ (пастухи) | г-нъ Шабановъ |
| Ферамерзъ (пастухи) | г-нъ С. Измайловъ |
| Шируя (пастухи) | г-нъ Мамедовъ |
| Главный жрецъ | г-нъ Таиръ |
| Забитъ (офицеръ) | г-нъ Казимовъ |

***Şəmsəddin Saminin «Dəmirçi Gavə» dramının tamaşa proqramı. Mirzə Muxtar Məmmədov bu tamaşada Şiruyə rolunu ifa edib.*** *24 aprel 1909*

Gülcamal («Axşam səbri xeyir olar», Sultanməcid Qənizadə), Mirzə Qoşunəli və Mirzə Bayram («Dağılan tifaq», Əbdürrəhim bəy Haqverdiyev), Səfər bəy və Arakel («Hacı Qara», Mirzə Fətəli Axundzadə), Şeyx Əhməd («Ölülər», Cəlil Məmmədquluzadə), Molla Sübhan («Ədirnə fəthi», Cəfər Cabbarlı), Cəfər xan («Nadir şah», Nəriman Nərimanov), Möbid («Ənuşirəvni-adil», Əbdürrəsul Şərifzadə), Keşiş («Qaçaqlar», Fridrix Şiller), Əhməd Rza («Sultan Əbdülhəmidin xəli», Mehdi bəy Hacınski), İbrahim («Qəzavat», S.Lanskoy), Zabit («Tariq ibn Ziyad», Əbdülhəq Hamid), Könüllü əsgər və Əkbər şah Hindu («Vətən» və «Qara bəla», Namiq Kamal), Zabit və Şiruyə («Dəmirçi Gavə», Şəmsəddin Sami).

Mirzə Muxtar Məmmədov Yetər, Hürü, Bədircahan («Yağışdan çıxdıq, yağmura düşdük», «Müsibəti-Fəxrəddin» və «Ağakərim xan Ərdəbili», Nəcəf bəy Vəzirov), Gülcamal («Axşam səbri xeyir olar», Sultanməcid Qənizadə), Yetər («Ər və arvad», Üzeyir bəy Hacıbəyli), Pərizad («Dilin bəlası», yaxud «Şamdan bəy», Nəriman Nərimanov) qadın rollarını da oynayıb.